

ELMAN İSKƏNDƏR

## GEDƏRƏM

Ayıla bilmirəm şirin yuxudan.
Axır bu qəfəsdən çıxıb gedərəm.
Bu evdən, şəhərdən, dostdan, yaxından,
Səni də yandırıb-yaxıb gedərəm.

Nələr itirmədim mən yata-yata?...
Qoy gedim, əlimdən gəlməmiş xəta.
Dönməyə bənd-bərə saxlamaram ta.
Bütün körpüləri yıxıb gedərəm.

Elə küskünəm ki, salam almaram.
Yüz yol "qal" desələr, bir yol qalmaram.
Dünyada heç nəyə tamah salmaram.
Qəfil şimşək kimi çaxıb, gedərəm.

Əl çəkib dünyanın şahlıq tacından,
asıldım üzülmüş ümid ucundan.
Bircə son ayaqda dar ağacından
mənə "get" deyəni baxıb gedərəm.

Çataram üfüqün bitdiyi yerə.
Şipşirin yuxunun getdiyi yerə.
Taleyin qayğısız etdiyi yerə
dənizə, dəryaya axıb gedərəm.

## BAXMA

Gülüstanın solmağı var.
"Cənnət" deyib, bağa baxma.
Bostan hər vaxt gətirməz bar,
məyus-məyus tağa baxma.

Şahin göydə qanad çalar.
Yerdə ilan dəri salar.
Ucanın uca dərdi var,
Köks ötürüb dağa baxma.

Aləm düşür rəngdən-rəngə.
Al günəşdən gəlmə təngə...
Ağla qara daim cəngdə,
Safdır - deyib ağa baxma.

Kimi qardaş, kimi yoldaş,
Kimi daldan atılan daş...
Ölü var ki, diridən baş
Ölü olan sağa baxma.

## GƏL

Yaz göyərtdi çəməni,
nəfəsində nübar gəl.
Yollar gözlətdi məni, -
gözlərimdə qübar, gəl.

İllər gəlib-gedəcək,
ürək sevib, sevəcək.
əllərimdə gül-çiçək,
dizlərimdə qabar, gəl.

Ömrümün yolu daşlı,
qəhərli, gözü yaşlı.
Yaramın üzü qaşlı,
qaysağını qopar gəl.

Ocaq idim, nazildim,
kül altında köz oldum.
Varlığına üzüldüm,
Yoxluğunu, apar gəl.

## BİRİ VAR

Bu dünyanın nə qədər açılmayan
sirri var?...
Bir insanın ayağı dəyməyən torpaqları,
zülmət dərələri var.
Cığırsız talaları,
izsiz zirvələri var.
Əlçatmaz qayaları,
dərilib-qoxunmayan ətirli gülləri var...

Bu dünyanın nə qədər şərhsiz
möcüzələri,
sevinci, kədəri var...
Hər şərin caynağında
xeyirin çırpınması...
Hər xeyirin yanında
"qardaş" olan şəri var.

Bu dünyada heç kəsə sevgi vəfa eləmir...
Hər sinədə göynədən
acı xatirə yeri,
hər nəfəsdə od saçan tüstüsü, həniri var.
Hər gözdə bir nakam eşq,
puç arzu, sönən ümid,
hər insanın qəlbində
yetmədiyi biri var.

Ədalət.-2023.-20oktyabr,№40.-S.7.